# "Yazıçı həmişə müharibənin əleyhinə olmalıdır"

## (Tanınmış yazıçı Elçin Hüseynbəyli ilə müsahibə)

**- Elçin müəllim, gəlin söhbətimizə Vətən mövzusundan körpü salaq. Çünki Vətən hamımız üçün müqəddəsdir. İndiyə qədər bu mövzuda bir çox şairlər şeir yazıb, qələmlərini sınayıblar. Sizin Vətən haqqında yazılan hansı şeirdən daha çox xoşunuz gəlir?**

- Düzü, bu barədə heç zaman fikirləşməmişəm, amma Vətən həmişə düşüncəmdədir. Yəqin ki, Səməd Vurğunun "Azərbaycan" şeiri olar. Bir də Məmməd Arazın eyni adlı şeiri. Bir də ki, vətəni şeirlə sevmirlər, bəlkə də "öyrənirlər" desək yaxşı olar.

**- Bəzən Vətən və qəhrəmanlıq sözləri sinonim kimi səslənir. Belə təəssürat yaranır ki, Vətəni saxlayan, qoruyan qəhrəmanlıqdır, qəhrəmanlardır.**

- Bu, assosiasiya, görünür, "vətəni qəhrəmanlar qoruyur" düşüncəsilə bağlıdır. Yəni "torpaq uğrunda ölən varsa vətəndir". Amma mən vətəni qoruyanların həmişə sağ qalmasını istərdim. Qoy, onlar da qələbənin dadını görsünlər. Maləsəf, həmişə belə olmur.

**- Qəhrəmanlıqdan söz düşmüşkən, necə fikirləşirsiniz, biz bu gün babalarımızın qəhrəmanlıq ənənələrini qoruyub saxlaya bilirikmi?**

- İndilik bunu demək çətindir. Çünki torpaqlarımız işğal altındadır. Amma fərd şəkildə qəhrəmanlarımız var. Bunu aprel döyüşləri də göstərdi. Ondan qabaq isə Mübariz İbrahimov örnəyi vardı. Özü də qəhrəmanlıq kütləvi olmur, sadəcə millət bir yerdə ölməyi şərəf sayırsa, bax, bu kütləvi qəhrəmanlıq anlamına gəlir, yəni obrazlı ifadə kimi.

**- Dilimizdə belə bir ifadə tez-tez işlənir: qəhrəman olmurlar, qəhrəman doğulurlar. Amma fərqli düşünənlərdə var. Siz bu barədə nə deyə bilərsiniz.**

- Mən sitüasiyanı önəmli sayıram. Bəzən ən qorxaq adam kimi tanıdığın birisi heç kimin gözləmədiyi qəhrəmanlığı göstərə bilər. Ümumən isə, qəhrəman elə anadan ürəkli və təpərli olan birisdir. Təbii ki, burda təbliğatın da rolu var və bunu danmaq olmaz. Bəzən qəhrəmanlığı da kiminsə yadına salmaq lazımdır.

**- Şeyx Şamilin də qəhrəmanlıqla bağlı dəyərli bir fikri var: "Aqibətini düşünən heç vaxt qəhrəman ola bilməz."**

- Onun əksini düşünənlər də var. Amma, bayaq dediyim kimi, Şamil sitüasiyanı nəzərə alıb, yəqin.

**- Bir yazıçı kimi sizin hərbi hissələrdə zabit və əsgərlərlə görüşləriniz olubmu?**

- Görüşlərim kollektiv şəkildə olub. Fərdi görüşlə bağlı müraciətlər olsa da, son məqamda reallaşmayıb.

**- Sizin "Ağ - qara" adlı kitabınız var. Buraya Qarabağ hadisələri ilə bağlı hekayələr daxil edilib. Kitabda "qara" hekayələr daha çoxdur. Ümumiyyətlə, bu hekayələrə "ağ" və "qara" rənglərini vermək yazıçı fantaziyasıdır, yoxsa siz hekayələri mövzusuna uyğun sıralamısınız?**

- Mövzuya uyğun sıralamışam. Mənim bəzi hekayələrim yumor və ironiya üstündə köklənib. Yəni, insan bəzən öz problemlərinə, qorxaqlığına fərasətsizliyinə ironiya ilə yanaşmalıdır. O biri tərəfdən isə Qarabağla bağlı ürək dağlayan elə hadisələr var ki, ona gülmək olmaz, mən onları qara rəngdə görürəm və yazıram.

**- Yəqin ki, bu hekayələr şahidi olduğunuz, yaxud eşitdiyiniz hadisələrin bədii inkasıdır.**

- Yazıçı bədii faktla ədəbi faktın arasındakı sərhədi elə itirməlidir ki, sonradan özü də nəyin həqiqət, nəyin uydurma olduğunu ayrıd edə bilməsin.

**- Kitabdakı hekayələrin içində "Qocanın axdığı gün" daha üzücü və ağrılıdır. Təbii ki, qocanın ölümünə səbəb erməni işğalıdır. Əgər onun yurdunu qəsb etməsəydilər, qocanın ömrü belə faciəli sonluqla tamamlanmazdı. Mənə elə gəlir ki, həm bu, həm də o biri hekayələr bir yazıçının işğala, müharibəyə hayqırtısıdır, etirazıdır.**

- Bayaqkı sualın davamı kimi deyim ki, belə bir qoca haqqında mənə danışıblar, amma mən onu hekayə kimi işləmişəm. Başqa tərəfdən də deyim ki, yazıçı həmişə müharibənin əleyhinə olmalıdır. Yəni bu onun bir missiyasıdır, amma torpaqlarımız işğal altındadır deyə, bəzən radikal çağırışlar da eləmək olar, amma hamının başa düşdüyü şəkildə və heç kimin xətrinə dəymədən.

- Oğurluqda mahir olan ermənilər sizin bu kitabda yer alan "Gözünə gün düşür" hekayənizi də çırpışdırıb "özəlləşdirmişdilər".

- Onlar belə bir kino çəkmişdilər. Adını çəkdiyin hekayənin süjetini özlərinin xeyrinə dəyişmişdilər. Bunu dolayısı yolla etiraf da etmişdilər. Maraqlananlar rus dilində Vikipediyaya girib, "Solntse byot v qlaza" yazsalar, həmin etirafı oxuya bilərlər. Deyim ki, bizdə də həmin hekayə əsasında qısametrajlı "Yol" filmi çəkilib.

**- Sizcə Qarabağ müharibəsi mövzusu ədəbiyyatımısda necə əks olunur? Bu mövzuda yazan bir yazıçı kimi işlər sizi qane edirmi. Qane etmirsə, hansı təkliflər verərdiniz?**

- Qarabağ mövzusunda kifəyət qədər yazılıb. Sadəcə "necə yazılıb" sualı meydana çıxır. Mən elə düşünürəm ki, Qarabağ mövzusunda elə yazılmalıdır ki, hər bir millət onu doğru anlaya bilsin. Hər kəsin öz həqiqəti var, amma sən öz həqiqətini elə motivləşdirməlisən ki, sənin həqiqətin daha ədalətli görünsün. Yəni şüarlarla yox, məntiq və sənətkarlıqla uğur qazana və başqalarını inandıra bilərsən.

**- Bir çox yazıçılar var ki, nəsrə şeirdən gəlirlər. Bəziləri isə əksinə, nəsrdən şeirə keçirlər. Amma siz nəsrdə möhkəmlənmisiniz. Belə bir "keçid" gözlənilmir ki?**

- Mən də hamı kimi uşaqlıqda şeir yazmışam, amma ondan öncə, üçüncü sinifdə oxuyanda Cəmşid Əmirovun "Qara volqa" əsərindən təsirlənib bir naşı hekayə də yazmışdım. Böyüyəndə nəsrə ehtiyac duydum və yazdım, indi də bu sahədəyəm. Dram və publisistikamla da tanışsan, yəqin. Ancaq bir sirr açım ki, hərdən şeir də yazıram və onların çoxu yumor üstündə köklənib. Qocala bilsəm, onları çap edəcəm.



**- Hər bir yazıçı öz üslubu ilə tanınır. Akademik Vineqradov deyirdi ki, üslubu olmayan yazıçı qaranlıqda gəzən pişiyə bənzəyir. Yazıçıda üslub necə formalaşır? Siz öz üslubunuzu necə "tapdınız?".**

- Hər bir yazıçı özünü axtara-axtara böyüyür: kimdənsə təsirlənir, kimdənsə öyrənir. Orxan Pamuk demiş sitüasiyaya uyğun olaraq kimdənsə çırpışdırır və sonda özünü tapır. Yaxşı mənada başqasından təsirlənə bilməyən yazıçının istedadına şübhə edirəm.

**- Şarl Bodlerin belə bir fikri var: "Əsl ədəbiyyatçı ədəbiyyatdan qorxur."Sizin ədəbiyyatdan qorxduğunuz günləriniz olmayıb ki?**

- Rəhmətlik yazıçı dostum Eyvaz Əlləzoğlu deyirdi ki, sənin xoşbəxtliyin ondadır ki, sözdən qorxmursan, ona yuxarıdan aşağı baxırsan, mənsə sözdən qorxuram və ona aşağıdan yuxarı baxıram. Əslində söz hər şeydən üstün olduğuna görə hamı ona yuxarıdan aşağı baxır, sadəcə nəsr yazanda sözdən xammal kimi istifadə eləməyi bacarmalısan.

**- Deyirlər ki, elm keçmiş zamanla köhnələ bilər, bədii əsərsə əbədidir. Sizcə bədii əsərə əbədilik verən nədir?**

- Elə deməzdim: elm də əbədidir. Yaxşı əsərlər də əbədidir, hansı dövrdə yazılmağından asılı olmayaraq. Əsərə əbədilik verən də, yəqin onun bütün dövrlər üçün aktual olmasıdır, yəni hisslər üstündə köklənməsidir.

**- Bunun əksini söyləyənlər də var. Oxuduğum məqalədən bu cümləni yazıb saxlamışam: " Ədəbiyyat bədii yolla dünyanı dərk etməyə can atan elmdir."**

- Ədəbiyyat dünyanı dərk etməyə can atmır, ədəbiyyat dünyanın necə olduğunu göstərməyə çalışır.

**- Aprel döyüşləri həm ölkəmizdə, həm də dünyada böyük əks-səda doğurdu. Ermənilər ağır itki verib geri çəkildilər, ordumuzun gücünü, qüdrətini gördülər. Döyüşlər zamanı sizin doğulub boya başa çatdığınız Cəbrayıl rayonunun ərazisinin bir hissəsi düşməndən azad edildi. O günlər siz hansı hisslər keçirdiniz.**

- Həmin gün, yəni aprelin 2-də mən toydaydım. Yaxınlarım da ətrafımdaydı. Çox sevinirdik, bəzilərimiz planlar da qururdu. Biri deyirdi ki, kəndin filan yerində məscid tikdirəcəm, biri söz verirdi ki, yol çəkəcəm. O hissləri ifadə eləmək çox çətindir. Heyf ki, bəzi qüvvələrin "rolu" nəticəsində hücumu dayandırdıq, amma xalqın ruhu dirildi. Aprel döyüşlərinə qədər durum başqaydı, ondan sonra isə xalqın döyüş əzmi yüksəldi, çünki xalq öz torpağını geri qaytarmaq gücünə inandı.

**- Yaradıcılıq işləriniz necə gedir? Mətbuatdan öyrəndiyimə görə Qarabağın keçmişindən və bu günündən bəhs edən "Yenə iki od arasında" adlı roman üzərində işləyirsiniz. Bu barədə oxucularımıza qısaca da olsa məlumat verməyiniz yaxşı olardı.**

- Roman bitib, "Azərbaycan" jurnalının sentyabr-oktyabr saylarında dərc olunacaq, noyabrda isə kitab şəklində çıxacaq. Əsasən Qarabağ tarixindəndir və Yusuf Vəzir Çəmənlinin xatirəsinə həsr olunub və əsər boyu onun həyatı qırmızı xətt kimi keçir.

**- Müsahibəyə görə sağ olun.**

**Müsahibəni qələmə aldı:**
**Vahid MƏHƏRRƏMOV**